

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 107 (23.519)

8 iyul 2020-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Modern dünyanın elə bir başqa bölgəsini tapmaq çətindir ki, orada yaşayan insanlar yaxın keçmişdə Naxçıvanda olduğu kimi çətin enerji çatışmazlığı sınağı versinlər. İndiki gənclər belə çətin günləri görməsələr də ötən 90-cı illərin əvvəllərində Naxçıvanda yaşayan hər kəs həmin qaranlıq gecələri yaxşı xatırlayır. O zaman enerji qıtlığından qışın soyuq, yayın qaynar, isti günlərini yaşayan insanların həyat şəraiti, boş dayanmış sənaye müəssisələri, suvarılmayan əkin sahələri, fasilələrlə işləyən rabitə, nəqliyyat infrastrukturu şəbəkəsi, təhsil və səhiyyə müəssisələrində, ümumilikdə, iflic vəziyyətinə düşmüş iqtisadiyyatın bütün sahələrindəki vəziyyət hamını narahat edirdi. Odur ki, yaşanmış bütün bu tarix və sonrakı dövrlərdə dünya iqtisadiyyatında baş verən ümumi proseslər enerji təhlükəsizliyi problemini qabarıq olaraq gündəmə gətirdi.***

## Tivi Su Elektrik Stansiyası:
## *Naxçıvanın enerji təhlükəsizliyinə yeni töhfə*






Enerji təhlükəsizliyi məsələsi sahib olduğu enerjidaşıyıcılarının növü və həcmindən asılı olmayaraq, əslində, hər bir ölkə üçün zəruridir. Hətta müasir dünyada zəngin karbohidrogen, yaxud nüvə və hidro potensiala malik olan ölkələrdə belə, enerji mənbələrinin şaxələndirilməsi və mümkün alternativ resurslar hesabına enerji təminatının zəmanət altına alınması üçün çox ciddi siyasət aparılır. Ona görə də ölkəmizdə, eləcə də muxtar respublikamızda enerji təhlükəsizliyi sahəsində həyata keçirilən strategiya bu vacib sahədə tam təhlükəsizliyə nail olmağı özündə ehtiva edir. Xüsusən blokada ucbatından ölkəmizdən birbaşa olaraq elektrik enerjisi nəqli imkanları olmayan Naxçıvan Muxtar Respublikası üçün bu olduqca həyativacib məsələ kimi həmişə diqqət mərkəzində saxlanılıb. Bununla da ötən müddət ərzində həyata keçirilən bütün işlərin nəticəsində artıq Naxçıvan elektrik enerjisi idxalından asılı olan bir regiondan onun ixracatçısı mövqeyinə gəlib çatıb. Ordubad rayon ərazisində tikiləcək Tivi Su Elektrik Stansiyası isə bu potensialın daha da artırılması istiqamətində mühüm bir töhfə olacaqdır.

Muxtar respublikanın enerji təhlükəsizliyi həmişə dövlətimizin diqqət mərkəzində olub. Hazırda Naxçıvanda enerji təhlükəsizliyi daha çox alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin olunur. Belə ki, diyarımızda illik elektrik enerjisi tələbatı 450 milyon kilovat-saata yaxındır ki, bunun da 230 milyon kilovat-saatdan çoxu alternativ və bərpa olunan enerji mənbələri hesabına istehsal olunur. Bu gün muxtar respublikada fəaliyyət göstərən elektrik stansiyaları arasında ən güclü Naxçıvan Modul Elektrik Stansiyası ilə yanaşı, böyük layihə olan Günəş Elektrik Stansiyası və daha 5 su elektrik stansiyası da vardır. Yeni tikiləcək Tivi Su Elektrik Stansiyası isə derivasiyatipli olacaq. Bu stansiya 15,6 meqavat gücündə layihələndirilib. Stansiyada illik 47 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir ki, bu da tələbatın 9-10 faizinə bərabərdir. Stansiya istifadəyə verildikdən sonra muxtar respublikanın illik enerji tələbatının 70 faizə yaxını bərpa olunan enerji mənbələri hesabına ödəniləcəkdir.

Tivi Su Elektrik Stansiyasının tikilməsi həm də Naxçıvanın sahib olduğu hidropotensialın iqtisadi potensiala çevrilməsinin ən yaxşı nümunələrindən biri olacaqdır. Belə ki, derivasiyatipli belə elektrik stansiyaları mürəkkəb relyef quruluşuna malik olan ərazilərdə enerji istehsal etmək üçün ən yaxşı ideyadır. Dünyada da geniş tətbiq olunan bu tip layihələrdə digər hidroqurğulara nisbətən daha az miqdarda ətraf mühitə təsir edilir ki, bu da layihənin ekoloji və sosial səmərəsini artıran amillərdəndir. Digər bir tərəfdən ucqar ərazilərdə tikilən elektrik stansiyaları burada uzunmüddətli investisiyalar üçün ilkin əsas daşımaqla çox mühüm əhəmiyyət kəsb edir ki, bu da ərazidə əlavə sosial effektlərin yaranmasına səbəb olur. Bütün bunlarla yanaşı, derivasiyatipli su elektrik stansiyaları möhtəşəm mühəndislik qurğuları kimi ümumi inkişafdan xəbər verir ki, bu da, ümumən, regionun investisiya cazibədarlığını artırır. Odur ki, diyarımızda tikilməsinə başlanılmış Tivi Su Elektrik Stansiyası bundan əvvəl Naxçıvanda istifadəyə verilmiş möhtəşəm enerji layihələrinin uğurlu davamı olacaqdır.

**✍ Əli CABBAROV**

## Test imtahanlarında şəffaflıq və obyektivlik diqqət mərkəzində saxlanılmışdır



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya iyun ayında da öz fəaliyyətini gücləndirmiş, qanunvericilikdən, əsasnamədən və iş planından irəli gələn vəzifələri icra etmişdir. Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət edilmiş və 1 dövlət orqanının qanunauyğun olmayan 2 qərarı ləğv edilmişdir.*

Ay ərzində ehtiyat kadrlarla işin təşkili diqqətdə saxlanılmış, ehtiyat kadrlar siyahısında olan 1 nəfər işlə təmin olunmuşdur. Ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test imtahanı keçirilmişdir. 10 vakant vəzifənin tutulması üçün sənəd təqdim etmiş 18 namizəddən 10-u test imtahanında iştirak etmiş, namizədlərdən 5-i müvafiq keçid balını toplamışdır. Ötən ay Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin test mərhələsi keçirilmişdir. Müsabiqəyə 27 vakant vəzifə çıxarılmış, keçirilmiş test imtahanlarında 12 namizəd iştirak etmiş, 7 nəfər keçid balını toplamışdır. Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində alman dili müəllimliyi və digər vakant vəzifələrə işə qəbul üçün keçirilmiş test imtahanlarında 150 namizəd iştirak etmiş və onlardan 130-u müvafiq keçid balını toplamışdır. Keçid balını toplamış namizədlərin sənədləri işə təyinat üçün Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə göndərilmişdir.

İyun ayında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müvafiq dövlət orqanlarının müraciətləri nəzərə alınmaqla vakant sektor müdiri vəzifələrinin tutulması üçün 2 nəfərin iştirakı ilə test imtahanı keçirilmişdir. Sektor müdiri vəzifələrinin tutulması üçün keçirilmiş test imtahanlarında müvəffəqiyyət qazanaraq sertifikat əldə etmiş 2 nəfərin müsahibə mərhələsində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın nümayəndəsi qismində iştirak edilmişdir. Bundan əlavə, müvafiq dövlət orqanları tərəfindən 17 dövlət qulluqçusunun iştirakı ilə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilmiş daxili müsahibələrdə müsahibə komissiyasının üzvü kimi iştirak edilmişdir.

Hesabat dövründə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən vergi, dövlət qulluğu və müəllimlərin işə qəbulu üzrə təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 108 namizəd iştirak etmişdir. Komissiya tərəfindən 18 sentyabr 2019-cu il tarixdə elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan 59 nəfərin iştirakı ilə 12 iyun 2020-ci il tarixdə Dövlət Bayrağı Muzeyində təntənəli andiçmə mərasimi olmuşdur. Maliyyə Nazirliyinin 20, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin 26 əməkdaşının iştirakı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda seminar keçirilmişdir.

Ay ərzində Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində və müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqəyə sənəd qəbulu davam etdirilmişdir. Keçirilən tədbirlər və test imtahanlarında sosial məsafə qorunmuş, tibbi maskalardan istifadə olunmuş və digər sanitar-gigiyenik tələblərə əməl edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Ötən ay 503 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

*Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi 2020-ci ilin iyun ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.*

Torpaqların elektron kadastr uçotunun aparılması məqsədilə Sədərək rayonunda planaalma işləri yekunlaşdırılmış, muxtar respublika üzrə torpaq sahələrinin sərhədlərinin çöl-geodeziya işləri nəticəsində dəqiqləşdirilməsi başa çatdırılmışdır. Ay ərzində 910 daşınmaz əmlak obyekti plana alınmışdır. Araz Su Anbarı üzərində qurulacaq yeni nasos stansiyasından qidalanması nəzərdə tutulan suvarma şəbəkəsinin əhatə etdiyi ərazilərdə topoqrafik planaalma işlərinin aparılması davam etdirilmişdir. Gilançaydan qidalanması nəzərdə tutulan suvarma xəttinin əhatə etdiyi, Culfa rayonu üzrə 603, Ordubad rayonu üzrə 587, cəmi 1190 hektar torpaq sahəsində topoqrafik planaalma işləri aparılmış, hazırlanmış xəritə materialları aidiyyəti üzrə göndərilmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsinin ərazisində monitorinqlərə başlanılmış, aşkar olunmuş torpaqdan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində iş aparılmışdır. Ötən ay 503 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 438 texniki sənəd hazırlanmış, yeni yaranmış 32 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 56 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. Səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 50 vətəndaşın müraciətinə baxılmışdır. 11 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Elin varı toplanılır

Bu gün muxtar respublikamızda hər bir kənd adamı öz torpaq sahəsində istədiyi məhsulu yetişdirə bilər. Bunun üçün torpaq mülkiyyətçilərinə hərtərəfli şərait yaradılıb. Muxtar respublikaya kənd təsərrüfatı texnikalarının gətirilməsi, genişmiqyaslı meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi, torpaq sahiblərinin yüksək məhsuldarlığa malik toxumlarla təchiz olunması və digər məqsədyönlü tədbirlər kənd adamlarını torpağa sıx tellərlə bağlayıb. Bu gün muxtar respublikanın hər bir yaşayış məntəqəsində təcrübəli əkinçilər, fermerlər, sahibkarlar var. Onlar müxtəlif əkinçilik sahələri ilə məşğul olur, həm öz güzəranlarını yaxşılaşdırır, həm də daxili bazara töhfələrini verirlər.

Strateji məhsul olan taxılın əkilib-becərilməsinə son illərdə muxtar respublikamızda daha çox diqqət yetirilir. Hər bir torpaq adamı "Öz təknəm, öz taxılım!" prinsipi ilə çalışaraq ilbəil əkin sahələrini artırır.



Qeyd edək ki, bu ilin məhsulu üçün muxtar respublikada 36 min 879 hektar sahədə taxıl əkilib. Diyarımızın torpaq-iqlim şəraiti həm də dəmyə sahələrdə əkin keçirməyə imkan verir. Əkilmiş taxılın 7 min 282 hektarının dəmyə sahələrdə olması bunu bir daha sübut edir. Sahələrdə bol məhsul yetişdirilməsi isə çəkilən zəhmətin bəhrəsidir. Hər il olduğu kimi, bu il də taxıl biçininin optimal müddətdə keyfiyyətlə başa çatdırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib, hazırlıq işləri görülüb. Belə ki, 107 taxılbiçən kombayn, 295 qoşqu, 301 kipvuran, 81 özüboşaldan avtomaşın, 602 traktor, 38 toxumtəmizləyən aqreqat saz vəziyyətə gətirilib. Onu da qeyd edək ki, 2019-cu ildə və bu ilin ötən dövründə muxtar respublikada 18 kombayn lizinq yolu ilə fiziki şəxslərə satılıb. Hazırda biçinə cəlb olunan "Dominator Klass", "New Holland" və "Sampo" markalı müasir kombaynların 93-ü fiziki şəxslərə, 7-si "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə, 6-sı isə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.

Məhsul tədarükünün mütəşəkkil həyata keçirildiyi muxtar respublikada taxıl əkini daha çox Babək rayonunda aparılıb. Bölgənin taxılçıları 11 min 767 hektar sahədə taxıl yetişdiriblər. Ən yüksək məhsuldarlıq isə həlelik Sədərək rayonuna məxsusdur. Belə ki, bölgədə 6 iyul 2020-ci il tarixə məhsuldarlıq 36,4 sentner təşkil edib. Ümumilikdə, adıçəkilən tarixə 21 min 450 hektar sahədən 65 min 546 ton məhsul tədarük olunub.

**Xəbərlər şöbəsi**

İstehsal müəssisələri

# Müəssisə “İxrac ili”nə öz töhfəsini vermək əzmindədir

***Ötən günlərdə inşa olunan Darıdağ arsenli su müalicə və istirahət kompleksindən xəbər hazırlamaq üçün birlikdə Culfa rayonuna yollanmışdıq. Burada aparılan tikinti işləri ilə tanış olduqdan sonra haqqında yazı yazmağı planlaşdırdığımız digər ünvanadək maşında Culfa rayonunun dünənindən və bu günündən söhbətləşdik, çox da uzaq olmayan keçmişindən danışdıq. Bəli, ötən əsrin 90-cı illərinin əvvəllərində Culfa rayonu da digər bölgələrimiz kimi çox çətin günlər yaşayırdı. Nə yolları yol idi, nə də küçələri. Kəndlərdə isə vəziyyət daha ağır idi. Soyuq qış günlərində çətinliklər daha da artırdı. Həmin dövr yaxşı xatirimizdədir, böyüklər həmişə pis günün ömrü az olar, – deyib heç bir zaman öz inamlarını itirmirdilər. Belə də oldu, müstəqilliyimizin bəhrəsi kimi bu gün Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız və onun bölgələri inkişafının zirvəsindədir. Culfa rayonu da illərin quruculuq töhfələrindən pay alıb, burada ən ucqar dağ kəndlərinə qədər rahat yollar çəkilib, hazırda yenə də rayon ərazisində kompleks quruculuq işləri aparılır.***

Avtomobilimiz yolun kənarında ətrafı yaşıllıqla əhatə olunmuş binaya “Nəqşi-cahan Holdinq” Şirkətlər Qrupunun Culfa rayon ərazisində fəaliyyət göstərən “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətinin binasına yaxınlaşdı. Bu gün süfrələrimizin bəzəyi olan “Sirab”, “Badamlı” mineral sularının və digərlərinin hazırlanmasında istifadə olunan karbon qazı məhz bu müəssisənin istehsalıdır. Nəinki Azərbaycanda, hətta Qafqazda ikinci belə bir zavod yoxdur desək, yanılmarıq.

Müəssisədə bizi qarşılayan “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Elman Seyidovla həmsöhbət olduq. O qeyd etdi ki, muxtar respublikanın bütün təbii ehtiyatlarından səmərəli istifadə edilməklə daxili bazarın tənzimlənməsində, tələbatın yerli istehsal hesabına ödənilməsində və idxaldan asılılığın azaldılmasında, xaricə valyuta axınının qarşısının alınmasında, əhali tələbatının daha dolğun ödənilməsində yerli istehsalın əvəzsiz rolu nəzərə alınaraq 2008-ci ildə bu müəssisədə kompleks tədbirlər həyata keçirilib. İkimərtəbəli inzibati və istehsal binalarından ibarət olan müəssisədə müasir texnoloji avadanlıqlar quraşdırılıb ki, bu, görülən işin daha keyfiyyətli, sürətli və yüksək səviyyədə aparılmasına imkan yaradıb.

Müsahibimiz söylədi ki, müəssisədə, əsasən, müasir avadanlıqlar quraşdırılıb. Yeni texnoloji avadanlıqlar hesabına müəssisənin illik istehsal gücü 6300 tondur. İstehsal prosesi tamamilə avtomatlaşdırılıb. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə xüsusi avtomaşınlar alınıb. Məhsullarımızın muxtar respublika və ölkə bazarlarında alıcıları var. Müəssisənin direktoru onu da qeyd etdi ki, təbii yolla əldə olunan xammalın istehsalı bir qədər ucuz başa gəldiyindən alıcı sarıdan narahatlıq yoxdur. Əsas bazar ölkədəki mineral su istehsalı ilə məşğul olan müəssisələrdir. Mineral su yatağından 2650 metr məsafədə borularla gətirilən xammal burada 3 mərhələdə sıxılıb soyudularaq maye halına salınır, xüsusi filtrlərlə təmizləndikdən sonra anbara ötürülür. Eyni zamanda ilk dəfə olaraq müəssisədə quru buz istehsal edən sex yaradılıb. Karbon qazının sürətlə buxarlanması yolu ilə əldə edilən quru buzun istehsalı üçün qəliblər quraşdırılıb.





Quru buzdan, əsasən, tibb sahəsində, dondurma istehsalında, meyvə-tərəvəz anbarlarında istifadə olunur. İndiyədək muxtar respublikada bu məhsula olan tələbat yalnız idxal hesabına ödənilib. Hazırda sexin illik istehsal gücü 50 tondur.

Müəssisədə laboratoriya da fəaliyyət göstərir. Bu da istehsal edilən məhsulun keyfiyyətinə nəzarət etməyə imkan verir. Xammalın qəbulundan satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, istehsal olunan karbon qazının, quru buzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Maye karbon qazı 6 kiloqramdan 25 kiloqramadək müxtəlif çəkilərdə balonlarda və çənlərdə, quru buz isə xüsusi taralarda sifarişçilərin ünvanlarına göndərilir. Maye karbon qazı və quru buz mineral sular, sərinləşdirici içkilər istehsal edən müəssisələr, tibb ocaqları, ərzaq məhsullarının istehsalı və daşınması ilə məşğul olan şirkətlər tərəfindən rəğbətlə qarşılanır. Elə bu səbəbdəndir ki, istehsal olunan məhsullara tələbat artır, quru buz sifarişə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən şirkətlərə də göndərilir. Müqayisə üçün qeyd edək ki, “Karbon Qazı Zavodu” MMC əvvəllər ölkəmizin digər regionlarında fəaliyyət göstərən 7-8 müəssisəyə və ya şirkətə karbon qazı satırdısa, hazırda bu rəqəm 40-ı ötüb.

Elman Seyidov bildirdi ki, bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışan kollektiv maye karbon qazı və quru buza artan tələbatın ödənilməsi üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir, istehsal edilən məhsul sifarişə uyğun olaraq ayrı-ayrı şirkətlərə vaxtında çatdırılır. Hazırda tələbata uyğun olaraq istehsal edilən məhsulun 30 faizi muxtar respublikada, 70 faizi isə Bakı şəhərində və ölkənin digər regionlarında fəaliyyət göstərən sifarişçi müəssisələrə göndərilir. Həmçinin muxtar respublikamızda istifadə olunmuş və ya istifadə müddəti bitmiş ilkin yanğınsöndürmə cihazlarının təmiri və doldurulması üçün burada əlverişli şərait yaradılıb. Burada 1, 2, 4, 5, 12, 25, 50 kiloqramlıq balonlarda quru kimyəvi tozlu, köpüklü və karbon qazlı ilkin yanğınsöndürmə cihazlarının müasir avadanlıq və materiallardan istifadə olunaraq doldurulması və hər cür texniki xidmətin göstərilməsi işi də həyata keçirilir. Onu da qeyd edək ki, əvvəllər ayrı-ayrı idarə, müəssisə və təşkilatlar, hüquqi və fiziki şəxslər istismar müddəti bitən yanğınsöndürmə cihazlarını təmir və yenidən doldurulması üçün xarici ölkələrə aparırdılar. Bu da vaxt itkisi və əlavə maliyyə vəsaiti tələb edirdi. Karbon Qazı Zavodunda bu sahənin fəaliyyətə başlaması ilə bu həmin problem aradan qaldırılıb.

Darıdağ arsenli suyu dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. Ona görə də buradakı sudan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu məqsədlə Karbon Qazı Zavodunda arsenli suyun duzunun istehsalına başlanılıb. İstehsal olunan Darıdağ müalicəvi duzu çəkisi 200 qram olan paketlərdə qablaşdırılır və satışa çıxarılır.

2020-ci ilin muxtar respublikada “İxrac ili” elan olunması istehsal olunan məhsulların ixrac imkanlarını daha da artırıb, iqtisadi əlaqələri genişləndirib, yeni sahibkarlıq subyektlərinin yaranmasına stimul verib. Sahibkarlığa dövlət dəstəyinin artması nəticəsində muxtar respublikanın rayon və kəndlərində iri, orta və kiçik istehsal müəssisələri yaradılıb, uğurlu investisiya layihələri həyata keçirilib, yeni sahibkarlıq subyektləri fəaliyyətə başlayıb. Bu baxımdan Culfa rayonunda da sənaye və kənd təsərrüfatı üzrə yeni subyektlərin yaradılmasına, mövcud olanların isə fəaliyyətlərinin genişləndirilməsinə daim dəstək göstərilir. Rayonda fəaliyyət göstərən sahibkarlıq müəssisələri iqtisadiyyatın inkişafına təkan verməklə yanaşı, istehsal etdikləri məhsulları paytaxt və xarici bazarlara da ixrac edirlər. “Karbon Qazı Zavodu” MMC-də olduğumuz vaxt ərzində bütün bu sadaladıqlarımızın əyani şahidi olduq və əminliklə qeyd edə bilərik ki, vaxtilə bütün istehsal sahələri tənəzzülə uğrayan muxtar respublikamız bu gün sürətli sosial-iqtisadi inkişaf dövrünü yaşayır. İndi Naxçıvanın rayon və şəhərlərində yox, kənd yaşayış məntəqələrində də istehsal sahələrinin qurulması, üstəgəl, yerli məhsulların xaricə ixrac olunması qədim diyarın bu sahədə böyük bir inkişaf yolu keçdiyini təsdiqləyir. Artıq həmin müəssisələr “İxrac ili”ndə daha çox məhsul istehsal etmək əzmindədir.

**Pərviz HACILI**
**Alim AĞAYEV**

*Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

# İlin oba vaxtıdır




Səhərin gözü açılmamışdan, hələ Günəş uca dağların başından boylanmamışdan yola çıxırıq. Avtomobilimiz Naxçıvan-Şahbuz-Batabat magistralı ilə hərəkət edir. Bu vaxtlar muxtar respublikamızın hər bir rayonundan, gələn qonaqların üz tutduğu məkana çevrilir Batabat... Kiçik Qafqaz dağlarında yerləşən bu yaylaq dəniz səviyyəsindən, təqribən, 3100-3200 metr hündürlüyü olan “Qonaqgörməz”, “Səbətkeçməz” və “Bədəldağı” adlı dağların əhatəsindədir.

Budəfəki səfərimizdə Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkimi Əli Qurbanov da bizə qoşulur. Əli həkim getdiyimiz istiqamətdə başıqarlı dağları göstərib deyir: Havaların isti keçməsinə baxmayaraq, dağların başında hələ də qar var. El arasında belə bir söz var, deyərlər ki, Batabatda 4 fəsil bir gündə yaşana bilir. Bəli, doğrudan da, elədir. Qızmar yay günündə burada qonaq olan nabələd bir insan birdən-birə elə çiskinli, küləkli bir hava ilə rastlaşır ki, sanki payızın ən soyuq gününü yaşayır.

Hələ uşaq yaşlarımda ildə bir neçə dəfə bu yurdun qonağı olardım. Qonşularımız yığılıb bura ələyəz, şıppır, əvəlik və başqa bu kimi təbiətin əvəzsiz məhsullarından yığıb qış tədarükü etməyə gələrdilər. Mən də anama qoşulub onlara yoldaş olardım. Uşaqlığıma “səfər etdiyim andan” məni sürücü Hüseynin səsi ayırır: – Doğrudan da, muxtar respublikamızın hər bir sakini kimi Şahbuz rayonunun camaatı da əməyə bağlı insanlardır. Baxın, yol kənarlarında səliqə ilə salınmış əkin sahələri insan zəhmətinin nəyə qadir olduğunun və bu yerlərin insanlarının əməksevərliyinin canlı nümunəsidir.

Budur, artıq Biçənək kəndinə çatırıq. Bir zamanlar bomboş qalan kəndə indi maraq artıb. Baxdıqca gözoxşayan yaşıllıqlar, evlər kəndə xüsusi bir yaraşıq verir. Birazdan maşınımız hamar, qara örtüklü yoldan ayrılıb dağ yolu ilə şütüməyə başlayır. Bu yerlərə yaxşı bələd olan Əli həkim yolumuzun üstündə yerləşən “Turşsu” deyilən bir bulaq haqqında danışır. “Batabata gəlib Turşsudan içmədən keçmək olmaz”, – deyən həkimin sözünə, sanki sürücü də dəstək verirmiş kimi çəmənlik bir yerdə maşının əyləcini basır. Yolun kənarında yerləşən bulaqdan qaynayaraq çıxan bumbuz suya əl vurmaq mümkünsüzdür.

Artıq mənzilbaşına çatmışdıq. Öyrənirik ki, oba sakinləri Şərur rayonunun Cəlilkəndindən bu yaylaqlara üz tutublar. Həmsöhbət olduğumuz 89 yaşlı Abdulla baba bu yerlərin səfasından ağızdolusu danışır. O deyir ki, mən bu yaylağa hələ uşaqkən öz valideynlərimlə gələrdim. Zaman ötüb, artıq öz övladlarım, nəvə-nəticələrimlə bu yurdun sakininə çevrilmişəm. Batabatın təbiəti, zəngin bitki örtüyü heyvandarlıq üçün çox əlverişlidir.





Gördüyünüz bu yaylaq həmişə küləkli olduğuna görə el arasında “Yellicə” yaylağı adlanır. Nə qədər əlçatmaz, ünyetməz ərazidə oba qursaq da, dövlətimizi var olsun, hər zaman buradakı insanlarla yaxından maraqlanırlar. Mütəmadi olaraq Şahbuz Rayon Baytarlıq İdarəsinin, Gigiyena və Epidemiologiya Mərkəzinin, Rayon Mərkəzi Xəstəxanasının nümayəndələri bizimlə söhbətlər aparır, çadırlarımızı, örüşlərimizi dərmanlayır, lazım olan dərman preparatları ilə təmin edirlər. Söhbətimizin bu yerində yaşı yetmişi haqlayan Xanımgül nənə də bizə qoşulur: – Ay qızım, dağların qoynunda qərar tutub yaşadığımıza görə bazar-dükana əlimiz çatmır. Sağ olsunlar mağazaları maşınlarla ayağımıza qədər gətirirlər. İstədiyimiz məhsulu elə qapımızdaca ala bilirik.

Yaylaqda yaşadığımız müddətdə istehsaldan da ayrı qalmırıq. Belə ki, hazırladığımız süd, qatıq, şor, kərə, pendir kimi ağartı məhsullarını elə buradaca satırıq. Elə insanlar var ki, sırf bu məhsulları almaq üçün yaylaqlara qalxırlar. Bəzən də biz özümüz istehsal etdiyimiz məhsulları satış üçün yarmarkalara göndəririk. Lakin burada olduğumuz müddətdə tək işimiz heyvandarlıq olmur. Şahbuzun dağları zəngin bitki örtüyünə malikdir. Elə gördüyünüz bu dağda kəklikotu, səhləb, qantəpər, ələyəz, əvəlik və başqa otlardan yığıb tədarük edirik. Yığdığımız nemətlərdən hər il muxtar respublikadan kənarda yaşayan qohumlarımıza, xüsusilə Rusiyada yaşayan övladlarıma pay göndərirəm.

Obanın başları oyuna qarışan ən balaca sakinləri də bizi görüb ətrafımıza toplaşırlar. Havaların sərin keçməsi ilə əlaqədar oba sakinləri artıq bir neçə gün idi ki, burada yerləşib özlərinə şərait yaratmışdılar. Beşyaşlı Rəsul çəmənlikdə top oynamaqdan aldığı zövqdən hələ də doymamışdı. Rəsula yaxınlaşıb: “Harada yaşamaq daha gözəldir, burada, ya evinizdə?” – sualını verəndə balacanın: “Əlbəttə ki, burada!” – deyə qətiyyətli cavabında onun yay aylarında, xüsusilə də ölkə ərazisində pandemiyanın hökm sürdüyü, istirahət məkanlarına, yaxınlarının yaşadığı digər bölgələrə gediş-gəlişin məhdudlaşdığı bir vaxtda öz istirahətindən məmnunluğu duyulurdu.

Biz yaylaq sakinlərinin bir günü ilə tanış olarkən Şahbuz Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin, rayon Baytarlıq İdarəsinin əməkdaşları da onların yaşadıqları çadırların ətrafını dərmanladı, sahibkarlarla maarifləndirici söhbətlər apardılar. Rayon Mərkəzi Xəstəxanasının həkimi Əli Qurbanov isə sakinlərin səhhətləri ilə maraqlanıb, onlara istifadəsi zəruri olan dərman preparatları təqdim etdi.

*Beləcə, işimizlə bağlı səfərdə olduğumuz daha bir günün necə keçdiyinin fərqinə varmadan Günəşin batdığını müşahidə edirik. Yolumuz uzaq olduğundan “yolçu yolunda gərək”, – deyib şəhərə geri qayıtmağa tələsirik. Gördüklərimizdən belə qənaətə gəlirik ki, harada yaşamasından, hansı işlə məşğul olmasından asılı olmayaraq, dövlətimiz öz vətəndaşını həmişə qayğı ilə əhatə edir.*

**Telli MƏMMƏDOVA**

# Bu günümüzə qayğı göstərənlər etibarlı gələcəyimizi təmin edirlər

***Bu barədə düşünərkən istər-istəməz ötən əsrin sonlarında ölkəmizin düşdüyü çətin sosial-iqtisadi şəraiti xatırlamalı olursan. Həmin illərdə yaşanan mürəkkəb ictimai-siyasi hadisələr, SSRİ kimi nəhəng imperiyanın çökməsi ilə yenidən suveren dövlət olmaq hüququnu reallaşdırmaq imkanı qazanan Azərbaycanda hakimiyyətdə olan müxtəlif qüvvələrin səriştəsiz siyasəti olduqca ağır bir vəziyyətin formalaşması ilə nəticələnmişdi. Digər tərəfdən Sovetlər İttifaqına daxil olan ölkələr arasında 70 il ərzində formalaşmış iqtisadi əlaqələrin bir anda pozulması, istehsalın iflic vəziyyətinə düşməsi, intensiv şəkildə dəyişən qiymət indeksi nəticəsində infilyasiya prosesinin dərinləşməsi sosial-iqtisadi böhranı daha da ağırlaşdırmışdı. Eyni zamanda ayrı-ayrı silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəsi, ölkənin siyasi və coğrafi cəhətdən parçalanmaq təhlükəsi ilə üzləşməsi, vətəndaş müharibəsi astanasına gəlməsi, Ermənistanın təcavüzünə məruz qalması, 1 milyondan artıq qaçqın və məcburi köçkün ordusunun yaranması kimi amillər vəziyyəti xeyli ağırlaşdırırdı. Təbii ki, bütün bu məşəqqətli günlərin fonunda işsizlik, yoxsulluq həddinin artması sosial gərginliyi dərinləşdirmiş, infilyasiya prosesini sürətləndirmişdi.***

Keçmişi xatırladıqca bir daha iftixarla bu qənaətə gəlirsən ki, Azərbaycan bu gün əvvəlki dövrlə müqayisə olunmaz dərəcədə dəyişib. Bu inkişaf strategiyasının müəllifi, xalqımızın ümummilli lideri Heydər Əliyev dövlət quruculuğu fəlsəfəsində əhalinin sosial təminatının daim gücləndirilməsini çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib, bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirməklə yeni ictimai-iqtisadi formasiyada insanların yüksək həyat səviyyəsinin etibarlı təminatına nail olub. Bu baxımdan, sadəcə, bugünkü reallıqlar zəminində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial təminat tədbirlərinə nəzər salmaq kifayətdir. Əvvəlcə ölkəmiz üzrə əhalinin sosial rifahı halının yüksəldilməsi istiqamətində son illər qəbul edilən mühüm dövlət sənədlərinin bir neçəsinə baxaq.

Prezident cənab İlham Əliyev tərəfindən təkcə ötən il əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində qəbul edilən qərarlar böyük tarixi əhəmiyyət daşıyır. Çünki bu sahə ilə bağlı imzalanan fərman və sərəncamlar 4 milyondan çox insanın həyat şəraitinin yaxşılaşmasına xidmət edib, pensiyalar, əməkhaqqı, müavinət və təqaüdlər əsaslı şəkildə artırılıb. 2019-cu ildə qəbul edilən iki sosialyönümlü paketə əsasən minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata çatdırılıb. Bunun sayəsində dövlət sektorunda çalışanların əməkhaqları 20-100 faiz artıb. Minimum pensiya isə 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırılıb. Həmçinin xüsusi şərtlərlə təyin olunan pensiyalarda 31 faiz artım təmin edilib. Beləliklə, ümumilikdə, hər iki istiqamət üzrə pensiya artımı 750 min nəfərdən çox pensiyaçını əhatə edib. Nəticədə, Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri arasında birinci yerə, minimum əməkhaqqının alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə yüksəlib.

Bununla yanaşı, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb. Həmin artım həssas qrupdan olan vətəndaşlardan ibarət 600 min insanı, o cümlədən 300 minə qədər əlilliyi olan şəxsi əhatə edib. Eyni zamanda məcburi köçkünlərin müavinətləri, tələbələrin təqaüdləri də artırılıb, 800 min insanın problemli kreditlə bağlı olan narahatlığına son qoyulub.

Göründüyü kimi, ulu öndərimizin müəyyənləşdirdiyi sosial strategiya ölkə başçısı tərəfindən uğurla davam etdirilir. Bu layihələrin muxtar respublikada da uğurla həyata keçirilməsi əhalinin həyat səviyyəsinin ilbəil yaxşılaşması, daxili sabitliyin bərqərarolmasına şərait yaradıb. Aparılan sosial siyasətin real əsaslara söykənməsi, iqtisadiyyatın inkişafının çoxşaxəli xarakter alması və bu qəbildən olan digər tədbirlər sosial-iqtisadi yüksəliş mərhələsinin yaşanmasına səbəb olub. Bu kontekstdə sosial bərabərliyə nail olunması, əməyin və insanların sağlamlığının qorunması, vətəndaşlara göstərilən dövlət yardımlarının, orta aylıq əməkhaqlarının davamlı şəkildə artırılması xüsusi vurğulanacaq məsələlərdir. Əməkhaqları, pensiya və digər sosial müavinətlər yoxsulluq probleminin həlli ilə bağlı görülən tədbirlər diyarımızda daha güclü sosial müdafiə modelini formalaşdırıb. 2010-cu ildən 2020-ci ilədək muxtar respublikada, ümumilikdə, 35 min 791 yeni iş yeri açılıb. Təbii ki, yüksək əməktutumlu iş yerlərinin yaradılması əhalinin səmərəli məşğulluğunu təmin edib, 2009-cu ilin sonu ilə müqayisədə məşğul əhalinin sayı 20,2 faiz artaraq 2019-cu ilin sonuna 250 min nəfərə yaxın olub. Hazırda muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanan orta aylıq əməkhaqqı 520 manata çatdırılıb. Bunu, sadəcə, bir il öncə ilə müqayisə etdikdə, müvafiq aylar ərzində artımın 19 faiz yüksək olduğunu görürük.

Məlumdur ki, sosial müdafiənin ən yaxşı forması əhalinin işlə təminatının yüksək səviyyəyə çatdırılmasıdır. İşləyən, yüksək əməkhaqqı alan vətəndaşın sosial yardıma ehtiyacı qalmır. Odur ki, dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas prinsiplərindən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunların qəbul və icra olunması sosial statusundan asılı olmayaraq, insan amilinə verilən yüksək qiymətin ifadəsidir. Sosial müdafiəyə daha çox ehtiyacı olanlara dövlət tərəfindən yardımların göstərilməsi əsas məqsədlərdən birini təşkil edir. Bu qəbildən olan çoxsaylı fərman və sərəncamların imzalanması, Dövlət proqramlarının təsdiq edilməsi həyata keçirilən sosial siyasətin effektivliyini və sosial qayğıya ehtiyac duyan daha çox insanı əhatə etməsi ilə nəticələnib.






Ötən dövrdə muxtar respublikada müvafiq Dövlət proqramlarında sosial xidmətlərin həcmi, keyfiyyəti və ünvanlılığı mütəmadi artırılıb, işsizlik problemlərinin həlli kimi vəzifələr daim əsas planda yer alıb. İşaxtaran vətəndaşların müvafiq iş yerləri ilə təmin olunması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında vaxtaşırı əmək yarmarkaları təşkil olunur. Ötən dövrdə Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarında keçirilmiş əmək yarmarkalarında 103-ü dövlət və 95-i özəl olmaqla, ümumilikdə, 198 müəssisədən 1580 boş iş yeri təqdim edilib. Əmək yarmarkalarında 209 nəfər sözügedən vakansiyalar üzrə işə göndərilib, 40 nəfər isə özünüməşğulluq proqramına cəlb edilib.

Sosial siyasətin mütərəqqi istiqamətlərindən biri də ehtiyacı olan ailələrə ünvanlı dövlət sosial yardım proqramının həyata keçirilməsidir. 2020-ci ilin ilk rübündə muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan 412 ailəyə ünvanlı dövlət sosial yardımı ödənilib, 5 nəfərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilib. Bu qəbildən olan insanlar üçün özünüməşğulluğun təmin olunması məsələnin köklü həllində ən yaxşı vasitədir. Həmin insanlar dövlətin göstərdiyi maddi və digər dəstəyin nəticəsi olaraq öz məşğulluqlarını təmin edə bilirlər. Bu mənada, aztəminatlı ailələrin aktiv məşğulluq tədbirlərinə cəlb olunmaları əlavə iş yerlərinin yaradılmasına, ailə gəlirlərinin artırılmasına imkan yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası bu işlərin sistemli xarakter almasında mühüm sənəd kimi dəyərləndirilib. Proqrama əsasən ötən il də xeyli məqsədyönlü tədbirlər reallaşdırılıb. Cari ilin ilk yarımilində isə 65 aztəminatlı ailənin özünüməşğulluğu təmin edilib. Bu layihənin daha bir səmərəli cəhəti ondadır ki, müqavilə əsasında istifadəyə verilən aktivlər müddəti bitdikdən sonra həmin ailənin mülkiyyətinə keçirilir. Bu da onların sosial rifah hallarının yaxşılaşdırılmasına, məşğulluqlarının təmin olunmasına və şəxsi sahibkarlıqlarını inkişaf etdirmələrinə köməklik göstərir.

O da xüsusi qeyd olunmalıdır ki, muxtar respublikamızda bütün kateqoriyadan olan insanların sosial problemlərinin həlli diqqət mərkəzindədir. Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ailə üzvlərinin və Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması da bunun bariz nümunəsidir. Mətbuatda, media orqanlarında, o cümlədən qəzetimizin səhifələrində hər il bu kateqoriyadan olan insanlara göstərilən həssas münasibəti əks etdirən məlumatlara rast gəlirik. Təkcə bu ilin ötən dövründə 2 şəhid ailəsinə, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda, hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 4 nəfərə fərdi yaşayış evləri və mənzillər, eyni zamanda Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda, hərbi xidmət vəzifələrinin icrası zamanı və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 11 nəfərə "NAZ-Lifan"-330 markalı minik avtomobilləri təqdim edilib.



Bu gün sosial müdafiəyə ehtiyacı olan əlil vətəndaşlar da dövlətimizin himayəsində tam təminatdadırlar. Aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində muxtar respublikada əlil vətəndaşların sağlamlıqlarının qorunması, reabilitasiyası, tibb və sosial-məişət xidməti ilə təmin edilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların minik avtomobilləri, texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil, habelə məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Yenə də bu ilin geridə qalan dövrünə nəzər salaq. Adıçəkilən dövrdə 218 tənha ahıl və əlil vətəndaşa evlərində sosial xidmət göstərilib, Naxçıvan Əlillərin Bərpa Mərkəzində 61 nəfər stasionar, 30 nəfər ambulator olmaqla, 91 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində stasionar və ambulator olmaqla, 88 uşağın müalicəsi təşkil edilib. Sağlamlıq imkanları məhdud 41 nəfər sanatoriya-kurortlara yollayışlarla, 94 nəfər texniki, 69 nəfər köməkçi reabilitasiya vasitələri ilə təmin olunub, 99 nəfərə protez-ortopediya xidmətləri göstərilib.

Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Əhalinin məşğulluğunun artırılması ilə bağlı qəbul edilən Dövlət proqramının icrası məhdud fiziki imkanlı şəxslərin də sosial müdafiəsinin gücləndirilməsinə əsaslı zəmin yaradır. Ötən müddət ərzində onlarla sağlamlıq imkanları məhdud vətəndaş müvafiq işlə təmin olunub.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, müdafiəsi, cəmiyyətə inteqrasiyası istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. ***"Yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər"***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən dövrdə təhsilin inkişafı ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb və bu sərəncamların icrasında məhdud fiziki imkanlıların təhsilə cəlbi də öz əksini tapıb. Belə dövlət sənədləri içərisində isə Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Mərkəz, sözün həqiqi mənasında, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyət həyatında iştirakı üçün əsl məbəd rolunu oynayır.

Hazırda muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi istiqamətində bir mühüm Dövlət proqramı da icra olunur. Belə ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqların tədris prosesinə cəlb olunması işləri daha geniş şəkildə həyata keçirilir. Ötən dövrdə proqramın icrası diqqətdə saxlanılıb, qeyd edilən kateqoriyadan olan uşaqların təhsilə cəlb olunması istiqamətində ardıcıl işlər görülüb.

Son illər ölkəmizdə geniş vüsət alan könüllülük fəaliyyəti mühüm ictimai, sosial və tərbiyəvi əhəmiyyət daşıyır. Bu layihənin davamı olaraq sosial könüllülüyə gənclərin təşviqi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə muxtar respublikada ilk dəfə olaraq "Sosial könüllülük hərəkatı" yaradılıb. Sosial iş ixtisası üzrə təhsil alan bir qrup tələbə müəyyənləşdirilib, onların müvafiq təlimlərə cəlb edilməsi məqsədilə Sosial Könüllülük Akademiyası yaradılıb. Bu akademiyanı uğurla başa vuran gənclər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müvafiq işlərə könüllü kimi cəlb olunublar.

Dünyada pandemiya dövrü kimi yaşanan son aylarda sosial könüllülük layihəsinin səmərəsini daha aydın müşahidə etdik. Sosial könüllü gənclərimiz karantin dövründə muxtar respublikada yaşı 65-i keçən və tənha yaşayan 301 ahılı həftədə iki dəfə evlərində ziyarət edib, ümumilikdə, 641 nəfərə sosial xidmət göstəriblər. Bu ilin mart-aprel aylarında muxtar respublikada yaşayan tənha ahıl, ünvanlı dövlət sosial yardımı alan, çoxuşaqlı ailə və xüsusi qayğıya ehtiyacı olan 1620 nəfərə ərzaq payları verilib. Bununla yanaşı, muxtar respublikada təhsil alan və pandemiya səbəbindən ölkələrinə gedə bilməyən 164 əcnəbi tələbəyə ərzaq təqdim olunub.

Əhalinin sosial problemlərinin həlli istiqamətində görülən məqsədyönlü işlər təbii ki, karantin dövründə daha geniş xarakter alıb. Qeyd olunan dövrdə muxtar respublika üzrə 412 ailənin 1839 ailə üzvünə ünvanlı dövlət sosial yardımı verilib, 17 ailəyə ünvanlı dövlət sosial yardımının verilmə müddəti uzadılıb. Məşğulluq orqanlarında işsiz kimi qeydiyyatda olan şəxslərə aylıq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi təmin edilib, bu məqsədlə 1600 nəfərə birdəfəlik ödəmə təyin olunub.

Nəticə olaraq deyək ki, hər bir cəmiyyətin, dövlətin tərəqqisini sürətləndirən ən mühüm amillərdən biri davamlı xarakter alan sosial siyasətin həyata keçirilməsidir. Sosial-iqtisadi inkişafın özünəməxsus modelini yaradan və nəticədə, iqtisadiyyatın artım tempinə görə dünya dövlətlərinin reytinq cədvəlində ön sıralarda olan Azərbaycan və onun blokada şəraitində inkişaf edən Naxçıvan Muxtar Respublikası bu gün həyata keçirdiyi sosialyönümlü siyasət strategiyası, eləcə də onun səmərəlilik əmsalının yüksək olması baxımından nümunəvi bir mövqeyə malikdir. Makroiqtisadi sabitliyin qorunub saxlanması şəraitində yoxsulluğun aradan qaldırılması, işsizliyin minimuma endirilməsi, dövlət büdcəsindən sosial sahələrə ayrılan maliyyə vəsaitlərinin davamlı şəkildə artırılması, insan kapitalının, sosial infrastrukturun inkişafı və nəticə etibarilə, əhalinin həyat səviyyəsinin ötən illərlə müqayisədə daha da yüksəlməsi bugünkü Naxçıvanı xarakterizə edən əsas reallıqlardandır.

Bir daha dönüb geriyə baxaq. Sadəcə, demoqrafik vəziyyətə və məşğulluq səviyyəsinə diqqət yetirək. Bir zamanlar ehtiyaca görə qonşu ölkələrə iş dalınca gedən muxtar respublika sakinləri bu gün doğma yurdunun idarə, müəssisə və təşkilatlarında vəzifəsini icra edir, fabrik zavodları işə salır, öz təsərrüfatını qurub yerli məhsul istehsal edirlər. Başqa sözlə, həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası sayəsində məşğulluq və işsizlik problemləri aradan qaldırılıb. Müəyyən səbəblərə görə qayğıya ehtiyacı olanları isə dövlətimiz öz etibarlı himayəsinə götürüb. Bir sözlə, bu günümüzə qayğı göstərənlər etibarlı gələcəyimizi təmin edirlər.

**✍ Gülcamal TAHİROVA**

*Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

***Muxtar respublikamızın faydalı bitki sərvətləri arasında dərman bitkiləri xüsusi əhəmiyyətə malikdir. Belə bitkilərdən səmərəli istifadə olunmasında onların düzgün toplanması və qurudulması da mühüm rol oynayır. Biologiya elmləri doktoru, professor Əliyar İbrahimov bizimlə söhbətində bildirdi ki, muxtar respublikamız özünəməxsus müxtəlif iqlimə, münbit torpağa, kifayət qədər su ehtiyatına malikdir. Bu əlverişli coğrafi şərait burada zəngin dərman bitkilərinin geniş yayılmasına zəmin yaradıb. Dövlət farmakopeyası tərəfindən qəbul edilmiş 150 növ dərman bitkisindən 132-si, yəni 88 faizi bizim doğma Naxçıvan diyarında yayılıb və olduqca zəngin, rəngarəngdir. Burada yaşamış insanlar əsrlərboyu müxtəlif xəstəliklərin müalicəsində dərman kimi həmərsin, səhləb, boymadərən, qatırquyruğu, xəşəmbül, yemişan, bağayarpağı, qarğıdalı saçağı, çobanyastığı, qırxbuğum otu, südləyən, məryəmnoxudu, əsməgül, üskükotu, yovşan, dağnanəsi, dəvədabanı, dazotu, qızılgül və digərlərindən geniş istifadə ediblər.***

# Dərman bitkilərindən səmərəli istifadə olunmasında onların düzgün toplanması və qurudulması böyük rol oynayır



Bütün rayonlarda yayılan dərman bitkilərinin tibb sənayesi üçün böyük əhəmiyyəti vardır. Naxçıvanda tüksüz biyan, ətirli yovşan, aşı sumağı, sarağan, həmərsin, yemişan, murdarça, qaraqınıq, kəklikotu, boymadərən, dazotu, qatırquyruğu kimi dərman bitkiləri o qədər geniş yayılıb ki, onların toplanması ilə ciddi məşğul olunarsa, nəinki Naxçıvanın, hətta bütün Azərbaycanın bu bitkilərə olan ehtiyacını təmin etmək, dərman preparatları istehsal edib ixrac etmək mümkündür.

Burada əsrarəngiz, gül-çiçəkli dağların subalp çəmənliklərində, alp xalılarında, vadilər boyunda, sıx meşələrində, çay sahillərində elə nadir və faydalı dərman bitkiləri vardır ki, bunları ancaq muxtar respublikamızda tapmaq olar. Belə bitkilərdən müxtəlifnövlü sürvəni (adaçayı), xoruzgülü, dağ turpu, pişikotu, üskükotu, acılıqotu, santoninli yovşan, rəvəndotu, həmərsin və digər dərman bitkilərini göstərmək olar. Onların tərkibindəki bioloji fəal maddələr qankəsici, qurdsalıcı, ödqovucu, büzüşdürücü, bəlğəmgətirici, işlədici kimi, həm də qan təzyiqinə, ürək-damar sisteminə müsbət təsirə malikdir. Bitkilərlə müalicə – fitoterapiya indi bütün dünyada geniş tətbiq olunur və müsbət nəticə göstərir. Naxçıvan əhalisi də maddi-mənəvi sərvətimiz olan dərman bitkilərindən səmərəli istifadə etməklə sağlamlıqlarını qoruyub saxlaya bilərlər. Hazırda muxtar respublikamızın rayonlarında əhali tərəfindən həyətyanı sahələrdə, pay torpaqlarında qiymətli dərman bitkiləri yetişdirilir ki, bunların da tibb elminin inkişafında, ətriyyat hazırlanmasında və yeyinti sənayesində böyük əhəmiyyəti vardır.

Müsahibim diqqətə çatdırdı ki, tədqiqatlar zamanı dərman bitkilərinin tərkibində müxtəlif quruluşlu maddələr olduğu müəyyən edilib. Onlardakı vitaminlər, qlükozidlər, üzvi turşular, qatranlar, aşı selik və yapışqanlı maddələr, efir yağları və başqaları müxtəlif xəstəliklərin müalicəsində çox mühüm əhəmiyyət kəsb edir. Buna görə də dərman bitkisinin bütün hissələrini yox, onun lazım olan hissələrini – yarpağını, çiçəyini, toxumunu, meyvəsini, kökünü, qabığını və sair toplamaq lazımdır. Bunun üçün hər bir toplayıcıda təqvim olmalıdır. Həmin təqvimdə bitkilərin hansı ayda, hansı hissəsinin, bitkinin hansı inkişaf fazasında toplanması göstərilməlidir. Bilmək vacibdir ki, təsiredici maddələrin miqdarı bitkinin keçirdiyi müxtəlif inkişaf dövründən asılı olaraq dəyişir. Onların müxtəlif hissələrində təsiredici maddələrin nə qədər və hansı fasildə daha çox toplanması tədqiqatlar nəticəsində müəyyən edilib. Məsələn, gülxətminin köklərində selikli maddə və nişasta bitki çiçək açan dövrdə ən az miqdarda olduğu halda, payız aylarında, daha doğrusu, bitkinin çiçəkləri solub töküləndə vaxt ən yüksək səviyyəyə çatır. Biyan bitkisində isə onun əksini görürük, onun kökünün tərkibindəki qlisirizin adlı təsiredici maddə ən çox bitki çiçək açan dövrdə olur. Deyilənləri nəzərə alaraq dərman bitkilərinin toplanması işi ilin müəyyən vaxtlarında aparılır. Bu isə toplanan xammalın keyfiyyətinin yüksək olmasını təmin edir. Bitkinin yerüstü hissələrindən istifadə etmək lazım gəldikdə onu bitki yeni çiçək açmağa başlayan zaman yarpaq, gövdə və çiçəkləri ilə birlikdə toplamaq lazımdır. Çiçəklər isə bitki təzə çiçək açan vaxt toplanmalıdır. Bu daha çox asterkimilər fəsiləsindən olan bitkilərə aiddir. Bəzi bitkilər – qızılgül, lavanda və darçının çiçəkləri istisna təşkil edir. Bunları tam açıldıqdan sonra toplamaq tələb olunur. Bitkilərin yarpaqlarını isə bitki ya tamamilə çiçək açan dövrdə, ya da bitki yeni çiçək açmağa başladığı vaxt toplamaq lazımdır. Tumurcuqlarını isə yaz fəslində, onların tökülməsinə az qalmış, çox şişən zaman toplayırlar. Tərkibində zəhərli və güclü təsirə malik maddələr olan bitkilərin köklərini əvvəl soyuq su ilə yuyub torpaqdan təmizləmək, sonra yerüstü hissələrdən və qurumuş köklərdən ayırıb qurutmaq lazımdır. Dərman bitkilərinin yerüstü hissələri bitki tam çiçək açarkən, bitki zoğları payızın son və yazın ilk ayında, qabıqlar isə bitki şirə ilə zəngin olarkən – yazın ilk ayında toplanmalıdır. Çünki yazda bitkinin qabıq hissələrində təsiredici maddələr daha çox olur. Bitkilərin qabıqlarını, adətən, cavan gövdəsindən və qol-budaqlarından toplayırlar. Qabıqları gövdədən ayırmaq üçün xüsusi bıçaqlardan istifadə olunur. Bu məqsədlə bitkinin gövdəsinin üzərini çərtərək qabıqları soyur, sonra isə qurudurlar. Dərman bitkilərinin yerüstü hissələri şehsiz və yağmursuz, açıq, günəşli havada toplanmalıdır. Yağmurlu və dumanlı havada toplanan bitkilər gec quruyur və təbii rəngini dəyişib tünd-qonur rəngə keçərək kif atır.

Bitkilərin çiçək, yarpaq və meyvələrini əl ilə, nadir hallarda isə ağac şanalarla, ot halında olan dərman bitkilərinin yerüstü hissələrini qayçı, bıçaq və ya çinlə biçib, kökləri və kökümsov gövdələri isə bel və kərki vasitəsilə, yaxud yeri şumlamaqla (məsələn biyan bitkisinin kökü) toplayırlar. Dərman bitkilərini toplayarkən onların qurd yemiş, həşəratdan zədələnmiş, göbələk xəstəliyinə tutulmuş və çürümüş hissələrini seçib ayırmaq lazımdır. Otlar, bitkinin yarpaq və çiçəyi və adi səbətlərə toplanılır. Təzə giləmeyvələri təmiz səbətlərə, quru meyvələri, kökləri və qabıqları isə torbalara toplamaq, toplanmış dərman xammalını qurutmazdan əvvəl çeşidlərə ayırmaq, meyvə və toxumları toplayarkən yetişməmiş, əzilmiş hissələri kənar etmək lazımdır. Kök və kökümsov gövdələri xəlbirin içərisində axar suda yumaq daha yaxşı nəticə verir. Gülxətminin kökünü suda çox saxlamaq olmaz. Toplanan kök və kökümsov gövdələrin yerüstü hissələrini kəsib atmaq lazımdır. Çox yoğun olan köklər, daha yaxşı qurusun deyə, uzununa kəsilib xırdalanmalı və qabıqdan çıxarılıb qurudulmalıdır.

Əliyar İbrahimov vurğuladı ki, toplanmış dərman bitkiləri çeşidlərə ayrıldıqdan sonra dərhal qurudulmalıdır. Təzə toplanmış bitki xammalını uzun müddət qurutmayıb torbalarda, səbətlərdə və ya topa halda saxladıqda bitkilərin rəngi tündləşir, kif atır, qızışır, parçalanma prosesi başlanır, bitkinin tərkibindəki təsiredici maddənin miqdarı azalır və yaxud tamamilə itir. Qurutma prosesi nə qədər tez gedərsə, alınan materialın keyfiyyəti də bir o qədər yaxşı olar. Lakin tərkibində efir yağı olan elə bitkilər də vardır ki, onların tədricən qurudulması bitkinin tərkibində efir yağının çox qalmasına səbəb olur. Məsələn, bənövşənin kökünü tədricən qurutduqda fermentlərin təsiri nəticəsində bənövşə daha xoşətirli olur.

Müsahibim qeyd edir ki, dərman bitkisi materiallarını yaxşı qurutmaqda məqsəd onların uzun müddət yararlı halda qalmasını və saxlanmasını təmin etməkdən ibarətdir. Dərman bitkisi xammalını 35-45 dərəcə istilik olan sobalarda, çardaqlarda, dəmir örtüklü anbarlarda, nadir hallarda isə bilavasitə açıq havada brezent və həsir üzərində qurudurlar. Bitki materiallarını qurudarkən onları nazik halda qat-qat sərib, gündə 1-2 dəfə çevirirlər. Torpaq yerdə qurutmaq lazım gəldikdə bitki nəm çəkməsin deyə, brezentdən, otaqda qurutduqda isə üzərinə həsir döşənmiş taxta döşəmələrdən, qəfəslərdən məftil şəbəkədən və ya üzərinə çit çəkilmiş taxta çərçivədən istifadə edilir. Belə taxta çərçivələri qat-qat bir-birinin üzərinə qoymaq lazımdır. Dərman otlarını daha yaxşı qurutmaq üçün onları dəstə-dəstə bağlayıb asmaq da olar. Bitki materialları qurudulan binaların havası tez-tez dəyişilməlidir. Havası daim dəyişilən dəmir örtüklü çardaqlarda aparılan qurudulma daha yaxşı nəticə verir. Çünki belə şəraitdə temperatur kifayət qədər olub 40-50 dərəcəyə çatır. Tərkibində efir yağı olan bitkiləri günəşin altında qurutmaq olmaz. Çiçəklər nazik qatlarla sərilərək qarışdırılmadan qurudulur, əks halda, onlar qaralaraq öz təbii rənglərini dəyişə bilər. Yarpaqları yaxşı qurutmaq üçün onları 5-8 santimetr qalınlığında sərmək, iriyarpaqlı dərman bitkilərini, məsələn, dəvədabanı, günəbaxan yarpaqlarını isə tək-tək sərib qurutmaq lazımdır. Ot halında olan dərman xammalını dəstə-dəstə ipdən asıb, havası isti və quru olan otaqlarda və ya dəmir örtüklü çardaqlarda, cirə, razyana, zəyərək və xardal toxumunu, ümumiyyətlə, tərkibində az miqdarda su olan meyvə toxumlarını tez-tez havası dəyişdirilən otaqlarda qurutmaq məsləhətdir. Qurudulmuş bitki xammalının öz rəngini saxlaması onun düzgün və yaxşı qurudulduğunu göstərir. Bitkinin çiçək hissələri qurudulduqda öz əvvəlki təbii rəngini dəyişir. Məsələn, əməköməci bitkisinin çəhrayı rəngdə olan çiçəkləri qurudulduqdan sonra göy rəngdə olur. Qurudulan bitkilər öz iyini və dadını da dəyişə bilir.

Müsahibim bildirdi ki, toplanmış və qurudulmuş bitki dərman xammalı ilk tədarük məntəqələrindən mərkəzi anbara təhvil verilir. Həmin xammal satışa buraxılmaq üçün bir sıra əməliyyatdan keçirilir. Qəbul edilmiş bitki xammalı bəzən quru olmadığından və ya daşınan zaman yağmurlu havada nəm çəkdiyindən çürüyür, kiflənir, rəngi qaralır və nəticədə, öz keyfiyyətini tamamilə itirir. Buna görə onları çeşidləmək lazımdır.

Toxumları, tumurcuqları, giləmeyvələri və xırda çiçəkləri təmizləmək üçün suya tökmə üsulundan istifadə edilir. Bu üsulla təmizləmədə yararsız toxumlar, qismən başqa bitki toxumları, torpaq, toz və digər mexaniki qarışıqlar kənar edilir. Kökləri torpaqdan, qabıqları, yarpaqları tozdan və xırda hissələrdən təmizləmək üçün dəmir, sink və mis şəbəkəli, müxtəlifdiametrli ələk və xəlbirlərdən istifadə edilir. Təmizlənmiş material keyfiyyətcə I və II növlərə ayrılır. I növdən olan materiallar apteklərə, II növdən olanlar isə istehsalata göndərilir. Dərman bitkiləri tədarükünün lazımi vaxtda və müvafiq şəraitdə aparılması bu prosesin müvəffəqiyyətlə başa çatdırılmasını tezləşdirəcəkdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Muxtar respublikada ekoloji tarazlıq qorunur

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən uğurlu sosial-ekoloji siyasət ötən ay da davam etdirilmişdir.*

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 7 yoxlama-reyd keçirilmiş, 1 inzibati xəta qeydə alınaraq qanunauyğun tədbir görülmüşdür. Ay ərzində Naxçıvan şəhəri, Şərur, Ordubad, Babək, Şahbuz və Culfa rayonlarının 30-dan çox yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər aparılmış, müəyyən çatışmazlıqlar aşkar edilərək aradan qaldırılması üçün tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında iyun ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından hər birindən 6 su nümunəsi olmaqla, ümumilikdə, 18 su nümunəsi götürülmüş və 270 analiz aparılmışdır. Aparılan analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın saxlanması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmış, ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmişdir. Hesabat dövründə Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağında 15 hektar sahədə şum aparılmış, 33 hektar sahədə ot biçilərək aqrotexniki qaydada qulluq göstərilmişdir. Hesabat ayında ilin əvvəlindən təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq toxum tədarükünə başlanılmış, 20 kiloqram tut, 100 kiloqram ərik toxumu tədarük olunmuşdur. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir.

Muxtar respublika ərazisində meteroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir. Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir. Ərəzin sahəsində aparılacaq mövsümi işlərə hazırlıq başa çatdırılaraq çöl işlərinə başlanılmışdır. Keçilmiş yerüstü dağ qazmalarından 25 şırım sınağı götürülmüşdür.

Hesabat ayında iməciliklər yolu ilə salınmış meyvə bağlarından toplanmış 3 min 660 kiloqram müxtəlif meyvələr hərbi hissələrə təhvil verilmişdir. Belə tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Şahbuz rayonunun Batabat ərazisində yaylaq mövsümü ilə əlaqədar məskunlaşmış fermerlərlə də ötən ay fərdi görüş keçirilmiş və yaylaqdan istifadə qaydaları haqqında maarifləndirici söhbət aparılmışdır.

Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair müvafiq sərəncamın icrası məqsədilə nazirliyə hamiliyə verilmiş ixtisasların tələbələri və ekologiya könüllülərinin iştirakı ilə onlayn bağlantı qurularaq 5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı geniş məlumat verilmiş və onları maraqlandıran mövzular ətrafında müzakirələr aparılmışdır. Eyni zamanda "Ekoloji tarazlığın qorunub saxlanılmasına müasir baxış, problemlər, faktlar və təkliflər" mövzusunda onlayn respublika elmi konfransı keçirilmişdir. Onlayn görüşlərin keçirilməsi davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## *İtmişdir*

Şərur rayonunun Düdəngə kənd sakini Məmmədov Məmməd Paşa oğlunun adına olan JN-189$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Azərbaycan Ordusunda həqiqi hərbi xidmətdə olan Novruzov Novruz Fikrət oğlunun AD 0004699 nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 500